UOT 37.01



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Təhsil İnstitutu

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilir.*

"MÜƏLLİM HAZIRLIĞI STRATEJİ HƏDƏFLƏRDƏN BİRİ KİMİ" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Bakı şəhəri, 18 may 2018-ci il



*Elmi Konfransın respublika səviyyəsində keçirilməsinə Azərbaycan Respublikası Nazirlər Kabineti 05 fevral 2016-cı il tarixli, 17/17/4939-11 nömrəli məktubla icazə vermişdir.*

**Buraxılışa məsul:**
**Faiq Şahbazlı,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*

**Elmi redaktor:**
**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*



**RESPUBLİKA ELMİ KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ**

**Faiq Şahbazlı** - ARTİ-nin Elmi-Pedaqoji Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim – sədr
**Ənvər Abbasov** - ARTİ-nin direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent əməkdar müəllim – sədr müavini
**Oruc Həsənli** - Naxçıvan Müəllimlər İnstitutunun rektoru, AMEA-nın müxbir üzvü, pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi – üzv
**Rafiq Qəndilov** - ARTİ-nin direktor müavini, kimya üzrə fəlsəfə doktoru – üzv
**Akif Abbasov** - ARTİ-nin elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor – üzv
**Fərrux Rüstəmov** - Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi – üzv
**Lazifə Qasımova** - Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müdiri pedaqogika üzrə elmlər doktoru, professor – üzv
**Hümeyir Əhmədov** –ARTİ-nin şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru, professor – üzv
**Pirəlı Əliyev** - ARTİ-nin şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru – üzv
**Vidadi Orucov** - Bakı Dövlət Sosial-İqtisad Kollecinin direktoru, pedaqogika üzrə elmlər doktoru, dosent – üzv
**İntiqam Cəbrayılov** - ARTİ-nin şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru – üzv
**Sevda Quliyeva** - İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın direktoru – üzv
**Xudayar Sultanlı** - ADPU-nun Cəlilabad filialının direktoru, dosent – üzv
**Məmməd Kazımov** - ARTİ-nin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent – üzv


***İradə Böyükağa qızı Əmirəliyeva,***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,*
***Dinarə Səmidəli qızı Əsədova,***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi işçisi*
***Günel Rüstəm qızı Quluzadə,***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi katibliyinin referenti*


# "MÜƏLLİM HAZIRLIĞI STRATEJİ HƏDƏFLƏRDƏN BİRİ KİMİ" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI


***Ирада Боюкага гызы Амиралиева,***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*
***Динара Самидали гызы Асадова,***
*научный сотрудник Института Образования Азербайджанской Республики*
***Гюнель Рустам гызы Гулизаде***
*референт ученого секретариата Института Образования Азербайджанской Республики*


# РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ НА ТЕМУ: "ПОДГОТОВКА ПРЕПОДАВАТЕЛЕЙ КАК ОДНА ИЗ СТРАТЕГИЧЕСКИХ ЦЕЛЕЙ"


***İrada Boyukagha Amiraliyeva,***
*doctor of philosophy in pedagogy*
*leading researcher of the Institute of Education of the Republic of Azerbaijan*
***Dinara Samidali Asadova***
*researcher of the Institute of Education of the Republic of Azerbaijan*
***Gunel Rustam Guluzader,***
*referent of the Scientific Secretariat of the Institute of Education of the Republic of Azerbaijan*


# REPUBLICAN SCIENTIFIC CONFERENCE ON THE TOPIC: "TRAINING OF TEACHERS AS ONE OF THE STRATEGIC GOALS"

Yaxınlarda Azərbaycan Respublikasının Təhsil İnstitutu **"Müəllim hazırlığı strateji hədəflərdən biri kimi"** mövzusunda respublika elmi konfransı keçirmişdir. Konfrans Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmişdi.

Elmi konfransın plenar iclasını giriş sözü ilə institutun Elmi-Pedaqoji Mərkəzinin direktoru filologiya üzrə fəlsəfə doktoru, dosent **Faiq Şahbazlı** açaraq müəllim hazırlığının bu gün həmişəkindən də daha vacib olduğunu diqqətə çatdırdı. Göstərdi ki, elmi konfransın respublika səviyyəsində keçirilməsinə Azərbaycan Respublikasının Nazirlər Kabineti *05 fevral 2016-cı il tarixli, 17/17/4939-11 nömrəli məktubla* icazə vermişdir. **Faiq Şahbazlı** sonra bildirdi ki, müxtəlif təhsil müəssisələrindən konfransa məruzə mətnləri daxil olmuş, təşkilat komitəsi həmin materiallar üzərində işləyərək, təkmilləşdirərək 115 tezisin nəşrini məqsədəmüvafiq hesab etmişdir.

Daha sonra **F.Ş. Şahbazlı** qeyd etdi ki, elmi konfrans iki hissədə - plenar və bölmə iclaslarında keçiriləcəkdir. Plenar iclasından sonra konfrans öz işini 8 bölmədə davam etdirəcəkdir. Bölmələrin adları ilə konfrans iştirakçılarını tanış etdi: 1. Ümummilli lider Heydər Əliyev müəllim şəxsiyyəti və pedaqoji kadr hazırlığı haqqında”. 2. Müəllim hazırlığı sistemində tərbiyə məsələləri. 3. Müəllim hazırlığı sistemində pedaqoji ustalıq, nəzəri və metodik hazırlıq məsələləri. 4. Müəllim hazırlığı sistemində təlim texnologiyalarının tətbiqi məsələləri. 5. Müəllim hazırlığı sistemində monitorinq və qiymətləndirmə, pedaqoji diaqnostika və pedaqoji ekspertiza məsələləri. 6. Müəllim hazırlığı sistemində təhsilin idarə olunması məsələləri. 7. Müəllim hazırlığı sistemində psixoloji xidmət məsələləri. 8. Müəllim hazırlığı sistemində inklüziv təhsilin təşkili məsələləri.

Dos. **F.Ş. Şahbazlı** elmi konfrans iştirakçılarını və qonaqları salamlayaraq, onlara minnətdarlığını bildirərək plenar iclasını açıq elan etdi.

İnstitutun direktor müavini, dos. **Ənvər Abbasov** *“Müəllim hazırlığına verilən müasir tələblər”* mövzusunda məruzə etdi.

O, ilk növbədə, təhsil fəlsəfəsini müəyyənləşdirməyə kömək edən suallar üzərində dayandı. Müasir dövrdə təhsilin intellektual xarakter almasını, bu prosesdə müəllimin əvəzedilməz rolunu qeyd etdi. Eyni zamanda belə bir sualın (Təlim prosesində müəllimin rolu nədən ibarət olmalıdır?) cavabının müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

Dosent **Ə.M. Abbasov** müasir müəllim fenomeninin xarakterik cəhətləri üzərində dayandı. Bildirdi ki, müəllim cəmiyyətimizin qarşısında ciddi məsuliyyət daşıyır. Özünün fəaliyyəti ilə daimi cəmiyyət qarşısında hesabatlıdır. Onun fəaliyyətində bu gün daha çox yaradıcı xarakterin olması çox əhəmiyyət daşıyır. Müasir zamanda müəllim sadəcə nümunə olmaqla, məlumatları ötürməklə tələbatlara cavab verə bilməz. Onun müəllim kimi funksiyalarında diaqnozlaşdırma, təşkilatçılıq, istiqamətləndirmə, nəzarət etmə, korreksiya, təhlil-tərkib edə bilmə aparıcı rol oynamalıdır. Heç təsadüfi deyil ki, müasir pedaqogika müəllimin bu funksiyalarına üstün yer verdiyindən onda təşkilatçılıq, didaktik, perseptiv, kommunikativ, təlqin edici, tədqiqatçılıq, elmi-idraki qabiliyyətlərin olmasını tələb edir. Bütün bu keyfiyyətlər isə müəllimin üzərinə çox ciddi vəzifələr qoyur. Elə vəzifələr ki, onların yerinə yetirilməsi ilə müəllimin cəmiyyətdəki nüfuzu dəyişir, onun inkişafyönlü fəaliyyətindəki addımlarına daha böyük inam yaranır. Müasir müəllimin təcrübəsi harada təzahür edir? Bu təcrübədən görünən məqamlar hansılardır?

Ənənəvi olaraq çox hallarda müəllimin təcrübəsini müəllim-şagird münasibətlərində axtarmışıq. Hazırkı zamanda bu, əsas paramertlərdən biri kimi qalmaqla tam mənasında müəllim təcrübəsi haqqında təsəvvür yarada bilmir. Çünki müəllimin cəmiyyətdə, təhsil prosesində funksiyaları dəyişməklə onun fəaliyyətlər müstəvisində də uyğun istiqamətlər yaranmışdır. Odur ki, yeni təhsil şəraitində müasir müəllimin fəaliyyətləri müəllim-təhsil prosesi, müəllim-məktəb rəhbəri, müəllim-müəllim, müəllim-şagird, müəllim-valideyn müstəvilərində məqbul hesab edilir. Həmçinin bu paramertlərdə dəyərləndirilir. Müəllimin pedaqoji fəaliyyətində yanaşmalar da dəyişmiş, yeni xarakter almışdır. Artıq o, kreativ təhsil mühitində standart icra mexanizmi ilə işləyə bilməz. Ona görə də təhsil standartlarının reallaşdırılması istiqamətində qeyri-standart yanaşmalara istinad olunmalıdır. Eləcə də şablon strategiyalardan konstruktiv, kreativ yanaşmalara keçilməlidir. Müəllimin pedaqoji fəaliyyəti həm də gələcəyə yönəlməklə, perspektivli olmalıdır. Bu cəhət inkişafyönlü təhsil prosesinin xarakterindən irəli gələn bir xüsusiyyət kimi nəzərə alınmalıdır. Müəllim istiqamətverici xarakterli fəaliyyəti ilə pedaqoji prosesi tənzimləməlidir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor **Akif Abbasov** *"Ümummilli lider Heydər Əliyev müəllimin pedaqoji əməyi haqqında"* mövzusunda məruzə ilə xitabət kürsüsünə çıxdı. Professor öz məruzəsinə aşağıdakı sözlərlə başladı: Ümummilli lider Heydər Əliyev dövlətimizə başçılıq etdiyi illərdə Azərbaycan təhsilinin inkişaf etməsi, dünya təhsil sisteminə özünə layiqli yer tutması üçün bir sıra sərəncam və fərmanlar imzalamış, öz məruzə və çıxışlarında təhsilin önəmli məsələlərini, eyni zamanda çatışmayan cəhətlərini diqqət mərkəzinə gətirmiş, təhsil sisteminin təkmilləşdirilməsi ilə bağlı qiymətli fikirlərini irəli sürmüşdür. Azərbaycan müəllimlərinin XII qurultayının iştirakçılarına müraciətlə söylədiyi aşağıdakı fikirlər Ulu öndərin təhsilə qayğısının bariz nümunəsi sayıla bilər: "Azərbaycan Respublikasının prezidenti kimi, sizi əmin etmək istəyirəm ki, təhsil sahəsi, təhsil islahatları hər zaman mənim diqqət və qayğım altındadır".

Daha sonra prof. **A.N. Abbasov** qeyd etdi ki, Ulu öndər təhsildə aparıcı mövqeyə malik, cəmiyyətdə şərəfli yer tutan müəllim amilini də xüsusi qeyd edir, müəllim şəxsiyyətini, onun şəxsi və peşə keyfiyyətlərini təhsilin, təlim və tərbiyə prosesinin səmərəli qurulmasında vacib hesab edir və belə bir qənaətə gəlirdi ki, hər bir xalq, millət, insan yaratdıqları ilə vətən torpağına şərəf gətirir, onun adını uca edir. Ulu öndər tərəfindən gərəkli və məsuliyyətli müəllim əməyi belə dəyərli insanlar arasında yüksək dəyərləndirilirdi.

Ümummilli lider şəxsiyyətin, təhsilalanların formalaşmasında müəllimin roluna yüksək qiymət verməklə yanaşı, onlardan öz peşələrinə həmişə hörmətlə yanaşmağı, öz elmi-nəzəri və metodik hazırlıqlarını, pedaqoji ustalıqlarını müntəzəm şəkildə artırmağı tələb edirdi. Bu xüsusda deyirdi: "Müəllimlərə müraciət edirəm ki, onlar nəinki bu gün üçün, gələcək üçün də öz vəzifələrini, məsuliyyətlərini həmişə düşünsünlər".

Müəllimin şəxsiyyətini yüksək dəyərləndirən Ulu öndər cəmiyyətimizə, ölkə vətəndaşlarına xitabən deyirdi: "Hər bir vicdanlı adam, Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir. Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. İndi biz nə qədər çətin bir dövrdə yaşasaq da, müəllim adını daha yüksəklərə qaldırmalıyıq".

Ümummilli liderimiz məruzə və çıxışlarında, nitqlərində hər dəfə "müəllim" kəlməsini iftixar hissi ilə səsləndirirdi. Deyirdi ki, "Müəllim" sözü o qədər güclü, müəllim adı o qədər yüksək, sözün əsl mənasında o dərəcədə müqəddəsdir ki, müəllimlər gərək bu çətinliklərə dözsünlər, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olsunlar".

Ümummilli lider özü müəllimlərin hörmətini saxlamaqla, onlara ehtiramını gözləməklə bərabər başqalarının da öz müəllimlərinə, o cümlədən hörmət bəsləməyi, cəmiyyətin həyatında müəllimin oynadığı rolu daim qiymətləndirməyi tövsiyə edirdi. Ulu öndərə görə, sənə dərs deyən, uşaq vaxtlarından, gənclik çağlarından səni tərbiyə edən müəllimləri unutmaq olmaz. Ümummilli lider də hər zaman onları xatırlamış, minnətdarlıqla yad etmişdi. Ulu öndər məktəb işini, müəllimlik sənətini özü üçün ən doğma iş hesab edərdi ("Cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir").

Professor **A.N. Abbasovun** məruzəsində daha sonra deyilirdi: Ulu öndər təhsildən, təhsil sisteminin səmərəli təşkili, təhsildə yüksək nəticələrə nail olmağın vacibliyindən söz açarkən müəllimlərin üzərilərinə düşən vəzifələrə diqqəti yönəldirdi. Bildirirdi ki, müəllimin birinci dərəcəli vəzifəsi təhsilalanları biliklər sisteminə, dünyagörüşünə, biliklərə yiyələndirmək, onlara həyati bacarıqlar aşılamaqdırsa, həm də, bu vəzifədən heç də az əhəmiyyət daşımayan, onları tərbiyələndirməkdir. Bu işlə ardıcıl məşğul olmaq lazımdır.

Ümummilli liderimiz müəllimlərdən, məktəblərdən təhsilalanlar arasında vətənpərvərlik istiqamətində işlərin aparılmasını vacib sayırdı. Bu xüsusda deyirdi: Ulu "Ziyalılarımızın, ümumtəhsil məktəblərində çalışan müəllimlərimizin vəzifəsi gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməklə bərabər, respublikada ictimai-siyasi vəziyyətin sabitliyinə çalışmaqdan ibarətdir. Çünki daxildə sabitliyin pozulması həmişə cəbhədə böyük gərginliyə gətirib çıxarmışdır. Təlim-tərbiyə işləri ilə məşğul olarkən bir məsələni də diqqət mərkəzində saxlamalısınız".

Həqiqətən də cəmiyyətdə sağlam mənəvi-

psixoloji iqlimin hökm sürməsi - ölkənin möhkəm dayaqlar üzərində inkişaf etməsi deməkdir. Ona görə də Ümummilli liderimiz Heydər Əliyev böyüyən nəsildə vətənpərvərlik hisslərinin inkişaf etdirilməsini, onları milli-mənəvi dəyərlərə yiyələndirməyi müəllimlərə tövsiyə edərdi. Ulu öndər milli adət-ənənələrimizə və milli dəyərlərə xor baxan, milli əxlaqımıza ləkə gətirən şəxslərə qarşı idi. Qudurğan, harınlaşmış insanların cəmiyyətimizə, insanlığa zidd hərəkət və əməllərinin qarşısının qətiyyətlə alınacağını diqqət mərkəzinə gətirirdi.

Ümummilli liderimiz cəmiyyətimizdə saf mənəviyyatı bərqərar və inkişaf etdirmək, hər hansı mənfi hallara, cinayətkarlığa, o cümlədən gənclər arasında cinayətkarlıq hallarına qarşı mübarizəni gücləndirməyi mühüm vəzifə kimi irəli sürürdü

Ümummilli liderimizin ibrətamiz fikirləri, tələbləri, öyüd-nəsihətləri, məsləhətləri Azərbaycan vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və nəzərə alınır.

Bakı Dövlət Sosial-İqtisadi Kollecinin direktoru pedaqogika üzrə elmlər doktoru, dosent **Vidadi Orucov** “*Fizika müəllimlərinin hazırlanmasının müasir problemləri*” mövzusunda əsasən aşağıdakı məsələləri diqqət mərkəzinə gətirdi:

Fizika müəllimlərinin hazırlanması kəmiyyət və keyfiyyət, o cümlədən tələbat baxımından bir sıra problemlərlə üzləşmişdir. Əsas problemlərdən biri onların işlə təmin olunması və maddi ehtiyaclarının ödənməsidir. Çalışan müəllimlər isə daha ciddi problemlərlə üzləşirlər; məktəblərdə dərsliklər, müasir avadanlıqlar, metodiki və ədəbiyyatla təminat yetərli deyildir. Daha ciddi problemlərdən biri də fənnə olan maraqlarının getdikcə azalmasıdır. Ali təhsil müəssisələrinə qəbul olmağı məqsəd bilənlər isə repetitorlara üz tuturlar. Ali təhsil müəssisələrinə imtahan verən abituriyentlər illərdir ki, fizika fənnindən test tapşırıqlarının 30-33%-ni düzgün cavablandırırlar.

**V.Ö. Orucov** bunları doğuran səbəbləri təxmini olaraq aşağıdakı kimi qruplaşdırdı: ümumtəhsil məktəblərinin 7-11-ci sinifləri üçün fizika, astronomiya proqram və dərsliklərin ağırlığı, həmçinin nisbətən köhnəlməsi (2002-ci il); ali təhsil müəssisələrinin fizika müəllimi hazırlığı proqramının ümumtəhsil məktəbləri və eləcə də “Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində və peşə liseylərində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları” arasında uyğunsuzluğun olması; ümumtəhsil məktəb müəllimlərinin səriştəlilik səviyyəsinin aşağı olması; ümumtəhsil məktəbləri üçün fizikanın tədrisi metodikası üzrə yeni təlim texnologiyalarının qıtlığı.

Elmlər doktoru **Vidadi Orucov** göstərilən problemləri tədricən aradan qaldırmaq üçün kompleks tədbirlərin görülməsini məqsədəuyğun sayır, bunlardan ən zəruri hesab edilənlərini aşağıdakı kimi ümumiləşdirir:

1. Pedaqoji universitetlərdə ayrıca fizika və riyaziyyat fakültələri saxlamaq əlverişli deyil. Bakalavr səviyyəsində bunların vahid dekanlıqda birləşməsi, “fizika müəllimi”, “riyaziyyat müəllimi” kimi ayrı-ayrı ixtisaslar deyil, “fizika və riyaziyyat müəllimi” ixtisası verilməlidir. Bu gün dünyada inteqrasiyalı biliklərə daha çox ehtiyac duyulur.

2. İnteqrasiya olunmuş vahid: “Təbiət” və “Həyat bilgisi” fənlərini tədris etmək məqsədilə xüsusi qrupların “fizika və riyaziyyat müəllimi” fakültəsinin nəzdində hazırlanması məqsədəmüvafiqdir. Qabaqcıl ölkələrin təcrübəsinə uyğun olaraq bu qruplarda fizika və riyaziyyatla bərabər kimya, biologiya, astronomiya və fiziki coğrafiya fənləri də tədris edilməlidir. Çünki bütün təbiət elmlərinin əsasını orta məktəbdə tədris etmək qabiliyyətinə və inteqrativ biliklərə malik olan müəllimlərə bu gün daha böyük ehtiyac vardır.

3. Ali pedaqoji məktəblərə yalnız müəllimlik peşəsinə meyl və marağı olan, uşaqlara rəğbət bəsləyən, gənc nəslə elm öyrətməyi özünə şərəf sayan gənclərin pedaqoji universitetləri könüllü seçmələrinə tam şərait və imkan yaradılmalıdır. Nəzərə alınmalıdır ki, pedaqoji universitetlərə qəbulda təkcə toplanmış ballar kifayət deyil, burada şəxsi xarakter də xüsusi əhəmiyyət daşımalıdır. Buraya kim gəldi, necə gəldi, qəbul praktikası aradan götürülməlidir.

4. Ali pedaqoji məktəblərdə təhsil alan gənclərin ixtisasdan kənar fənlərlə yüklənməsinin qarşısı alınmalıdır.

5. Müəllim-tələbə münasibətləri ədalət və saflıq üzərində qurulmalı, tələbələrə təmənnalı,

qarşılıqlı, aldadıcı şərtlərlə yüksək qiymətlər vermək praktikası tamamilə aradan götürülməlidir.

6. Bir qayda olaraq tələbələr elə birinci kursdan həftənin bir gününü ixtisası üzrə ən yaxşı sayılan şəhər məktəblərində təcrübə keçməli, təcrübəyə rəhbərlik edənlər isə öz pedaqoji fəaliyyəti ilə seçilən alimlər və qabaqcıl müəllimlərdən olmalıdırlar.

7. Uzun illər ərzində özünü doğrultmayan təkmilləşdirmə institutları və mərkəzləri bu işin öhdəsindən gəlmək imkanına malik deyillər. Hazırda müəllimlərin təkmilləşdirilməsi üçün Avropa Şurası və Yuneskonun iş təcrübəsini əsas götürməklə mövcud sistemin yeniləşdirilməsi vacibdir.

8. Müəllimlər il boyu peşə biliyini, təcrübəsini təkmilləşdirməli və bunu başqaları ilə bölüşməlidirlər. Elə şərait yaradılmalıdır ki, hər bir fənn müəllimi ildə ən azı 4-5 təkmilləşdirilmə ilə bağlı tədbirdə fəal iştirak etmək imkanına malik olsun. Bu zaman onlara konkret mövzu üzrə müstəqil fikir söyləmək, həmkarları və yüksək ixtisaslı mütəxəssislərlə öz fikirlərini bölüşmək imkanı olsun.

9. Müəllim nüfuzunun kəskin surətdə artırılmasına ciddi ehtiyac var:

*Dövlət tərəfindən*: müəllimlərin əmək haqlarının orta yaşayış səviyyəsinə çatdırılması; müəllimin iş şəraitinin daim yaxşılaşdırılması:

*İctimaiyyət tərəfindən*: müəllimin gündəlik qayğılarının öyrənilməsi; müəllimi nüfuzdan salan məsələlərin aradan qaldırılması.

Müəllimin bacarığı ilk növbədə onun metodoloji (pedaqoji-psixoloji), ümumi mədəni səviyyəsini əks etdirən və fənyönlü bacarıqları ilə qiymətləndirilir. "Hər bir müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin çalarlarını nəzərə almalı və peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsinə çalışmalıdır". Fizika müəllimlərinin hazırlanması prosesində vacib şərtlərdən biri də elmi və metodiki biliklərin qarşılıqlı əlaqə modelinin müəyyənləşdirilməsidir. Bu əlaqələri üç istiqamətdə aparmaq olar: 1. Müasir dövrlə səsləşən elmi biliklərin əsaslarının öyrədilməsi. 2. Elmi-metodik hazırlıq səviyyəsinin gücləndirilməsi. 3. Nəzəriyyə və metodikanın sintezinin həyata keçirilməsi.

Pedaqogika üzrə elmlər doktoru **Vidadi Ourcov** öz çıxışının sonunda dedi: Qarşılıqlı əlaqələr seçilərkən bir sıra amillər nəzərə alınmalıdır: müəllimin peşəkarlığı ilə bağlı ehtiyacların hər tərəfli öyrənilməsi və təhlili; məktəb fizika proqramı və dərsliklərinin yeniləşmə dinamikası; pedaqoji-psixoloji elmin və təcrübənin inkişafı.

Yeni metodologiyalar hazırlanarkən bir sıra xüsusiyyətlərə diqqət yetirilməlidir: müəllim hazırlığında aparılan metodoloji yeniliklər cəmiyyətin tələblərinə uyğun olmalı və müasir tendensiyaları özündə əks etdirməlidir; metodoloji yeniliklər peşə fəaliyyətinin tamlığına və çevikliyinə xidmət göstərməlidir; yeni metodlar öyrədilərkən onun tətbiqi sahələri qabaqcadan müəyyənləşməlidir.

**Plenar iclasından sonra fasilə elan edildi. Fasilədə sonra bölmə iclasları keçirildi.**

***Ayrı-ayrı bölmələrdə çıxış edən bəzi şəxslərin məruzələrindən bəzi məlumatları diqqət mərkəzinə gətiririk:***

Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru **İntiqam Cəbrayılovun** "*Müasir dövrdə müəllim hazırlığı probleminin bəzi məsələləri*" mövzusunda çıxışı dinlənildi. **İ.H. Cəbrayılovun** çıxışındakı bəzi məqamları yada salaq:

Ali məktəb müəllimlərinin iş təcrübəsi göstərir ki, artıq bir qayda olaraq ənənəvi metodlarla (yalnız müəllimin monoloqu-şərhi) bütün mühazirə dərslərinin təşkili təlim keyfiyyətinin yüksəlməsinə və səmərəli nəticələrin əldə olunmasına əsaslı şəkildə təsir etmir. İnnovasiyaları mənimsəmiş daha təcrübəli müəllimlər isə dərsdə (həm mühazirə, həm də seminar) tələbələrin fəallığının, qarşılıqlı əməkdaşlığın formalaşdırılması və inkişafına, pedaqoji kadr hazırlığında keyfiyyətin idarəolunmasına yönəlmiş təlim mühitinin yaradılmasına xüsusi diqqət yetirirlər (*Azərbaycan müəllimlərinin XIV qurultayının materialları. Azərbaycan müəllimi qəz., 2013, 20 dekabr*).

Araşdırmalar göstərir ki, neft kapitalının insan kapitalına çevrilməsi rəqabətəqabil şəxsiyyətin formalaşdırılması ilə bilavasitə bağlıdır. Bu baxımdan 1) müxtəlif ixtisaslar üzrə müəllim hazırlığının keyfiyyətinin və 2) müəllimlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini

təminatı üçün yeni sistemin elmi əsaslarla davamlı olaraq tətbiqi vacibdir.

Müəllim hazırlığı prosesində aşağıdakı məsələlərə diqqət yetirilməsi əhəmiyyətli hesab edilir: müasir kompetensiyalara malik müəllim hazırlığına geniş imkanlar yaradan təhsil proqramlarının təkmilləşdirilməsi və tətbiqi; pedaqoji təmayüllü ali məktəblərdə müəllim hazırlığı keyfiyyətinin yüksəldilməsinə diqqətin artırılması; gələcəkdə müəllim hazırlığının yalnız ali təhsil müəssisələrində aparılması; müəllimlik ixtisaslarına qəbul prosesinin təkmilləşdirilməsi və təsadüfi seçimin qarşısının alınması; səriştəli müəllimlərin fəaliyyətinin stimullaşdırılmasına kömək edən pedaqoji heyətin sertifikatlaşdırma (lisenziyalaşdırma) sisteminin yaradılması; müəllimlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim, qiymətləndirmə metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi; müəllimlərin məktəb səviyyəsində, tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqi; yeni təhsil proqramlarına və İKT-yə əsaslanan təlim metodologiyalarına uyğun metodik vəsaitlərin, didaktik materialların və təlim vasitələrinin hazırlanmasını stimullaşdıran yeni mexanizmlərin təkmilləşdirilməsi.

ARTİ-nin Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Laləzar Cəfərova** “*Məktəbəqədər təhsilin həyata keçirilməsində tərbiyəçi-müəllimin peşə hazırlığı strateji hədəflərdən biri kimi*” mövzusunda çıxış etdi. **L.K. Cəfərova** aşağıdakı məsələlərə toxundu: Təlim prosesinə yeni yanaşmaların tətbiqində, tərbiyəçi-müəllimin peşəkarlığının yüksəldilməsi zəruri məsələdir. Pedaqoq hər bir uşağın emosional durumunu nəzərə alır, qrup otağında xoş əhval-ruhiyyə və inkişafetdirici mühit yaradır. Tərbiyəçi-müəllim təlim prosesində uşaqlara qarşı çox diqqətli olur, onlarla əməkdaşlıq edir, uşaqların hisslərinə, fikirlərinə hörmətlə yanaşır, eyni zamanda məşğələdə uşaqların idrak fəallığı nümayiş etdirmələrinə, yəni sərbəst müqayisə etmək, təhlil etmək, müstəqil fikir söyləmək, ümumiləşdirmə aparmaları üçün şərait yaradır. Şəxsiyyətin tam inkişafını təmin etmək məqsədilə təlimdə yeni yanaşmaların təmin olunması vacibdir. Yeni yanaşmaların tətbiqi psixoloji prosesləri sürətləndirir və uşaqların təlim və təlimdənkənar vaxtlarda qazandıqları təcrübəni həyata keçirməsinə imkan yaradır ki, bu da pedaqoqun uşaqlarla birgə fəaliyyəti zamanı özünü büruzə verir. Bu da müasir dövrün tələbləri baxımından tərbiyəçi-müəllimdən yüksək peşəkarlıq, səriştəlilik tələb edir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru **Həqiqət Hacıyeva** *“Ümumtəhsil məktəb biologiyasının tədrisində inteqrasiyanin tətbiqi imkanları”* mövzusunda çıxışında bildirdi: Ümumtəhsil məktəb fənlərinin tədrisində inteqrasiyanın tətbiqi məsələsi həmişə aktual olmuşdur. Onun formaları, yolları, imkanları, vasitələri, metodları müxtəlif tədqiqatların mövzuları kimi araşdırılmışdır. Bu tədqiqatlar epizodik xarakterli olub, problem tam, vahid istiqamətdə həll edilməmişdir. Çünki problemə pedaqoq, psixoloq, metodistlərin yanaşmaları müxtəlif istiqamətlərdə olmuşdur. Digər fənlərdə olduğu kimi biologiyanın tədrisi də inteqrasiyanın tətbiqini tələb edir. Onun məzmununda təbiət və humanitar fənlərlə inteqrasiyanın tətbiqi imkanları genişdir. Bu imkanlar fənn kurikulumunun məzmun xətləri və məzmun standartlarında öz əksini tapmışdır.

Biologiya fənninin məzmun xətləri və standartları arasında da inteqrasiya imkanları mövcuddur. Canlıların quruluşu, onlarda gedən bioloji proseslər, onların insan həyatında əhəmiyyəti, müxtəlif sahələrdə istifadə edilməsi, cansız aləmin canlılara təsiri məsələlərinin birlikdə, qarşılıqlı əlaqədə öyrədilməsi təlimin keyfiyyətini yüksəldir, materialın əhatəli öyrənilməsini təmin edir.

Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru **Xəzəngül Babayeva** “*Həyat bilgisi fənn müəllimi hazırlığının bəzi məsələləri*” mövzusunda çıxış edərkən dedi: Fənninin tədrisini aparan müəllim bilməlidir ki, bu fənn bütünlüklə şagirdlərə canlı və cansız təbiət haqqında geniş məlumat verməklə, həm də onları cansız və canlı təbiət hadisələri üzərində müntəzəm müşahidə aparmaq yolu ilə elmi dünyagörüşünə təsir edir. Onlara hüquq və vəzifələrini, cəmiyyətdə, ailədə, məktəbdə davranma qayda-

larını öyrədir. Nümunəvi davranışa tələbat formalaşdırır.

Daha sonra **X. Babayeva** göstərdi: Həyat bilgisi fənninin tədrisi prosesində şagirdlər eyni zamanda doğma diyarda insanların əməyi və təbiətdə fəsil dəyişiklikləri haqqında elmi məlumat əldə edirlər. Bu fənnin tədrisi prosesində şagirdlər həm də təbiətdə əşya və hadisələr arasında qarşılıqlı əlaqənin sirlərini öyrənərək təbiətdəki dəyişikliklərin insan əməyinə təsirini dərk edirlər. Dərsliyə daxil edilmiş hər bir bölmənin məzmunu şagirdlərin dərketmə imkanlarına, onların təfəkkür tərzlərinə müvafiq qurulmuşdur. Fənni öyrənərkən nəzərdə tutulmuş məzmun xətlərinin tələbələr tərəfindən ətraflı öyrənilməli və onların köməyi ilə şagirdlərin şüurunda təfəkküründə onları əhatə edən canlı və cansız aləmin vahid, bütöv və bölünməz olması təsəvvürünü yaratmaq vacibdir.

ARTİ-nin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru **Nigar Muradova** *«Педагогические стратегии - основы профессиональной подготовки преподавателя»* mövzusunda çıxışında aşağıdakı nəticələrə gəlmişdir: педагогическая стратегия - это устремленность внимания преподавателя на поставленную им цель обучения-воспитания и построение концепции педагогических действий во взаимодействии с обучающимся в согласии с лучшим представлением о конечном результате своей работы.

Таким образом, основание изложенного вывода свидетельствует о том, что педагогические стратегии содержат как теоретические, так и практические основы подготовки профессиональной деятельности преподавателей, указывающие ориентиры и результаты совершенствования их педагогической деятельности.

ARTİ-nin Təhsil nəzəriyyəsi şöbəsinin böyük elmi işçisi **Bəyimxanım Məmmədova** "*Orta ixtisas təhsilində pedaqoji kadr hazırlığı*" mövzusunda çıxış etdi. Tədqiqatı ilə bağlı aşağıdakı nəticələrə gəldiyini bildirdi: ilkin müəllim hazırlığı proqramlarında müəllimlərlə tələbələrin təmas vaxtı (dərs yükü) beynəlxalq normalarla müqayisədə çoxdur; stimullaşdırma amilləri olmadığından müəllimlərin öz peşəkarlıq səviyyəsini yüksəltməyə şəxsi marağı azdır; pedaqoji ixtisaslara tələbələrin seçilməsi və qəbul edilməsi üçün meyarlar hazırlanmalıdır (qabiliyyət tələb edən imtahanlar). **B. Məmmədova** eyni zamanda müəllim hazırlığı sahəsindəki pərakəndəliyi, tədrisin məzmunu və təşkilində yol verilmiş nöqsanları nəzərə alaraq, aşağıdakı təklifləri irəli sürdü: 1. Müəllim hazırlığı kurikulumu təkmilləşdirilməli; 2. Orta ixtisas məktəblərinin maddi-texniki baza və tədris bazası müasir tələblər səviyyəsinə qaldırılmalı; 3. Dərslik və dərs vəsaitlərinin hazırlanması işini sürətləndirməli; 4.Orta ixtisas təhsili müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təchizatına kömək etməli; 5. Əhalinin və əmək bazarının ehtiyaclarını nəzərə alaraq mütəxəssis hazırlığının həcmi və profil strukturu formalaşdırılmalı; 6. Müəllimlər üçün kateqoriya daxili artımları və stajla yanaşı yenilikçi təşəbbüsləri nəzərə alan əmək haqqı mexanizmi yaradılmalı; 7. Ümumtəhsil məktəbləri ilə pedaqoji kadr hazırlığı aparılan orta ixtisas təhsili müəssisələri arasında sıx əlaqə yaradılmalıdır.

Şirvan şəhəri, S. Hüseynov adına 1 №-li tam orta məktəb-xüsusi istedadlı şagirdlər liseyinin Çağırışaqədərki hazırlıq müəllimi, əməkdar müəllim **Rəfail Əliyevin** cıxışı *"Müəllimlərin təhsil müəssisəsi səviyyəsində hazırlığının səmərəli təşkilində innovasiyaların tətbiqi"*nə həsr edilmişdi. **R.Ş. Əliyev** diqqət mərkəzinə aşağıdakı məsələləri gətirdi: "Müəllim hazırlığı" anlayışı çox vaxt müəllimin ilk peşə hazırlığını təmin edən professional təhsil kimi başa düşülür. Sonrakı mərhələdə müəyyən müddətdən bir müəllimlər müxtəlif kurslara, o cümlədən ixtisasartırma kurslarına cəlb edilirlər. Ancaq kurslararası zaman fasiləsi belə müəllim hazırlığını formal amil kimi ortaya çıxarır. Buna görə də müəllim hazırlığının hazırlığın davamlılığını, səmərəliliyini, fasiləsizliyini təmin edə biləcək *"təhsil müəssisəsi-məktəb səviyyəsi"* anlamı gündəmə gəlir. Müəllim peşəsi daimi hazırlıq, peşəkarlığın mütəmadi təkmilləşdirilməsini tələb edir. Bu günün müəllimi öz üzərində daim çalışmalı yenilikləri mənimsəməli, səriştəliliyini artırmalıdır.

ARTİ-nin İnklüziv təhsil şöbəsinin müdiri **Lalə İmanova** "*Korreksiya pedaqogikası üzrə kadr hazırlığının təkmilləşdirilməsi yolları"* mövzusunda çıxış etdi. O, öz çıxışında korreksiya pedaqogikası kadr hazırlığının təkmilləşdirilməsi üçün 9 təklif irəli sürdü. Onlardan bəziləri-

ni diqqətə çatdırırıq: 1. Pedaqoji kadr hazırlığı ilə məşğul olan orta və ali müəssisələrdə ayrıca korreksiya pedaqogika fakültəsi açılmalıdır; 2. Korreksiya pedaqogikası üzrə tələbələrin şöbələrə bölünməsi (ən azından oliqofrenopedaqogika, surdopedaqogika, loqopediya və tiflopedaqogika) daha dərin biliklərə malik ixtisasçılar hazırlamaq üçün vacibdir. 3. Korreksiya pedaqogikası kafedrasının tədris yükünə laborator məşğələlərin əlavə olunması vacibdir. 4. Korreksiya pedaqogikası ixtisasının təkmilləşməsi üçün pedaqoji təcrübəyə aid məsələlər: - pedaqoji təcrubə 3 il ərzində, yanı II kursdan aparılsın; - pedaqoji təcrübənin müddəti uzadılsın; - pedaqoji təcrübə xüsusi məktəbəqədər və məktəb müəssisələrində aparılaraq, bu müəssisələrin növləri (məsələn, əqli cəhətdən geri qalan uşaqlar üçün məktəbəqədər və məktəb müəssisələri, kar və zəifeşidən uşaqlar üçün xüsusi müəssisələr, qarışıq tipli uşaqlar üçün xüsusi müəssisələr, inklüziv məktəblər və s.) genişləndirilsin; - pedaqoji təcrübənin rəhbərliyi korreksiya pedaqoqu tərəfindən aparılması zəruridir və s.

ARTİ-nin İnklüziv təhsil şöbəsinin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru **Elmira Kərimova**nın çıxışı *"İnklüziv təhsilin tətbiqində pedaqoji kadrların rolu"* adlanırdı. **E. Kərimova** çıxışında bildirdi: Sağlamlıq imkanları məhdud uşaqlarla işləyən müəllimin peşəkarlığının ən əsas göstəricilərinə nəzər salaq. Bunlar:

- müəllimin üzləşdiyi fenomenin səbəbini bilmək və anlamaq bacarığı: bilmək və anlamaq prosesi isə situasiyanın səbəbini təsadüfi yollarla axtarmağı deyil, dərin biliklərə əsaslanaraq keyfiyyətli təhlilin aparılmasını tələb edir;
- müəllimin hər hansı bir situasiyaya qeyri-standart yanaşması imkanı: müəllimdə fəaliyyəti bacardığının əsasında deyil, təlim prosesinin hazırkı zamanda tələblərinə uyğun qurmaq bacarığı olmalıdır;
- peşəkar səlahiyyətli müasir müəllim problemin mahiyyətini anlamalı və onu hər hansı bir qeyri-standart situasiyada həll etməlidir.

ADPU-nun Cəlilabad filialının müəllimi **Dürdanə Əliyeva** *"İnklüziv təhsildə müəllimin rolu və müəllim hazırlığı"* mövzusunda çıxışında göstərdi ki, ali təhsil müəssisələri gələcək kadrları əsasən ənənəvi təlim prosesinə hazırlayır. Hazırlıq görməmiş müəllim tərəfindən ciddi problemlər yaranır. Məktəb müəllimləri xüsusi qayğıya ehtiyacı olan uşağın qabiliyyətlərini və keyfiyyətlərini nəzərə almadan həmin uşaqlardan onların tipik həmyaşıdları kimi eyni bilikləri tələb edə bilərlər. Bu zaman ortaya ziddiyyət çıxır: xüsusi qayğıya ehtiyacı olan uşağın bacarıqları və onun qarşısına qoyulmuş tələblər kəskin fərqlənir. Bu ziddiyyət nəticəsində həmin uşağın təhsilə olan motivasiyası aşağı düşür və tədris prosesi zamanı çətinliklər yaranır.

E-mail: amiraliyeva_i@mail.ru,
sulamif44@rambler.ru,
gulizade.gunel@mail.ru.
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub: 19.05.2018**